# İranda siyasi partiyalar və vətəndaş cəmiyyətinin post-İslam Respublikası mərhələsində dövlət quruculuğunda iştirakı



Təqdim olunan məqalədə məqsəd, İranın gələcək dövlət quruculuğunda mövcud dini-strukturların oynayacağı rol, qurulacaq dövlət modelinin cəmiyyət tərəfindən dərk edilməsinə təsir göstərcək "media və informasiya mühitinin" imkanları, İranda təhsilin və mədəniyyətin səviyyəsinin dövlət quruculuğunda oynaya biləcək rolu, dövlətin gələcək planlaşdırılmasında siyasi partiyaların və vətəndaş cəmiyyətinin iştirakı, İranın dövlət quruculuğunda milli qüvvələrin rolu, iqtisadi amillərin, milli burjuaziyanın təsiri və  ümumi sosial-mədəni mənzərəni öyrənməklə proqnozları müəyyənləşdirməkdir.

Həmçinin, İranın keçmiş olduğu tarixi təcrübə və müasir geosiyasi şəraitin İran dövlətinin siyasi mənzərəsinə təsir edə biləcək qüvvələr öyrənilir, elmi təhlili yolu ilə siyasi proqnozlar verməyə çalışaq. Cross Media Təhlil Mərkəzinin analitiklərinin araşdırmaları İranda son yüz ildə formalaşmış dövlət quruculuğu ənənələrini müqayisəli təhlil metodundan istifadə etməklə hazırkı inkişaf səviyyəsi və dövlət quruculuğu prosesinə "üçüncü tərəflərin" müdaxiləsi imkanlarının öyrənilməsidir.

Problemə tarixi nöqteyi-nəzərdən yanaşaraq, müasir geosiyasi şərait fonunda post-islam respublikası dövrünün fəal siyasi iştirakçılarının müəyyənləşdirilməsi ilə təklif oluna biləcək dövlət modelinin təhlili nəzərdən keçirilir. Cross Media Təhlil Mərkəzinin analitikləri tərəfindən hazırlanan araşdırmalar ölkənin gələcək siyasi quruluşunda dini qurumların, mədəni və sekulyar qrupların, siyasi təşkilat və vətəndaş cəmiyyəti iştirakçılarının, milli burjuaziya nümayəndələri və iqtisadi amillərin oynaya biləcəyi rol tədqiq edilir. İranın siyasi quruluşu və gələcək perspektivləri probleminin müxtəlif epizodlarına dair elmi və populyar ədəbiyyatda böyük həcmli materiallar mövcuddur, lakin problemə tarixi ənənələrə müasir tendensiyaların təsiri kontekstində kompleks yanaşma ilk dəfə təqdim olunur.

İctimai təşkilatlar cəmiyyətin siyasi həyatında iştirak edən müxtəlif strukturları və qrupları əhatə edən geniş anlayışdır. Dünyanın müxtəlif ölkələrində belə təşkilatların yaranması və formalaşması müxtəlif zaman və məkan şəraitində özünü fərqli əlamətlərlə göstərib. İctimai təşkilatlara həm dövlət qurumları, həm də ictimai təşkilatlar, siyasi partiyalar, hərəkatlar və hakimiyyət orqanları ilə qarşılıqlı əlaqədə olan və siyasi proseslərə təsir göstərən vətəndaş birliklərinin müxtəlif formaları daxildir.

İranın siyasi-ictimai tarixində son yüz ildə belə təşkilatların yaranması və fəaliyyəti haqqında məlumatlar azdır və yaranan təşkilatlar son dərəcə spesifikdir. İctimai birliklər olaraq İran coğrafiyasında XIX əsrin ikinci yarısında yaranan “mason” təşkilatlarını qeyd etmək olar. Bu təşkilatlar haqqında məlumat az olsa da İranın siyasi həyatında əhəmiyyətli rol oynamışdı.

İran tarixində ilk siyasi partiyaların ermənilər tərəfindən yaradılması iddia edilir. Mənbələrdə göstərilir ki, “İranda ilk sosialist partiya olan Sosial Demokrat “Hınçak” Partiyası, İranda Erməni İnqilabi Federasiyası - 1890-cı illərdə Daşnaksütyun Partiyasının tərkibində yaradılmışdır.” Lakin, bu təşkilatların heç bir sosialist və demokratik mahiyyət daşımadığı, onların millətçi və ekstremist qruplardan ibarət olduğunu, müxtəlif ölkələrin ərazilərində silahlı dəstələr yaradıb, quldurluq və siyasi terrorla məşğul olduqlarını bilirik.

1900-cü illərdə Güney Azərbaycandan olan mühacir işçilər tərəfindən Bakıda yaradılmış “İçtimaiyun-e-Amiyun” partiyası sonralar fəaliyyət mərkəzini Təbriz şəhərinə köçürdü. 1906-cı ildə konstitusiyanın qəbulu, parlamentin yaradılması prosesində aktiv iştirak etdi və bu partiyalar ölkənin əsas parlament qüvvələrinə çevrildilər. 1918-ci ildə Demokratik Partiya parçalandı və bir il sonra fəaliyyətini dayandırdı.

XX əsrin əvvəllərində Rusiya inperiyasında baş verən hadisələr İran sosial-siyasi həyatına təsir etməyə başlayır. Xüsusilə də Qafqaz şəhərlərində yaranan siyasi təşkilatlar İranın şimal regionlarında öz əks-sədasını tapır və bir sıra qurumlar yaradılırdı. Sosialist, demokratik və milli yönümlü partiyaların yaradılması İran xalqları tərəfindən geniş rəğbət qazanmır, belə ki, institutlaşmış islam şiə dünyagörüşü insanların gündəlik həyatını son dərəcə dərindən nüfuz etmişdi və cəmiyyətdə alternativin olması haqqında zəif düşüncələr mövcud idi.

1920-1925-ci illərdə İranda demokrat partiyası, sosialist partiyası, liberallar adı ilə müxtəlif siyasi qruplar fəaliyyət göstərdi ki, onların bir qrupu pəhləvilərin hakimiyyətə gəlməsini dəstəklədi, bir qrup müxalifət etdi və son nəticədə bu qrupların heç biri ciddi təşkilatlanaraq ölkənin gələcək dövlət quruculuğunda iştirak etmədilər. Rza şahin siyasi repressiyaları 1927-ci ildən başlandı.

XX əsrin 20-ci illərində sosial-demokrat düşüncəli liderləri ikinci internasionalın iştirakçısı olduqlarına görə həbs etdilər və uzun müddətli həbs cəzası verdilər. 1937-ci ildə də üçüncü internasionalın sonunda yenidən böyük siyasi və ideolojı liderlər qpupunu həbs etdilər və İran cografiyasında siyasi təşkilatların yaradılması 1941-ci ildə Sovet qoşunlarının İrana daxil olmasından sonra başlandı.

1927-ci ildə Pəhləvi dövlətinin naziri Teymurtaş Mussolini partiyası və Atatürkün partiyaları nümunəsində hökumətyönümlü və şah tərəfdarı olan yeni “Tərəqqi” Partiyasını qurdu. Bu partiya beş il fəaliyyət göstərdi və Teymurtaşın vətənə xəyanət edamı ilə həbsindən sonra partiya da ləğv edildi.

Pəhləvilər zamanında “din-dövlət və miilət-din” doktrinasını həyata keçirməyə başladılar ki, bu bir tərəfdən İran Ariyaçılıq düşüncəsini, digər tərəfdən İslam şiə fərqliliyini qarşıya çıxarmalı idi. Həm millət, həm də din sahəsində izolasiyonizm modelini irəli sürən pəhləvilər hər cür partiya və ideologiyaya qarşı aqressiv mübarizə aparır və onların alternativi olaraq İrançılıq modeli yaratmağa səy göstərirdilər. Bu məqsədlə İranın tanınmış dilçi və tarixçı alimləri işə cəlb olunmuşdu və ölkənin qapalı idarəetmə sistemində azad düşüncəli ziyalılara yer yox idi.

Partiya quruculuğu tarixində mühüm mərhələ 1941-cı ildən sonra baş verdi. İranın şimalından sovet qoşunlarının İrana daxil olması və cənubdan da İngilis qüvvələrinin yerləşməsi ölkədə fərqli qüvvələrin meydana gəlməsi və müxtəlif maraqların müdafiəçiləri şəklində özünü göstərməyə başladı. Özünü İran Marksist-Leninçi Xalq Partiyası adlandıran Tudə partiyası, özünü millətçi adlandıran “İran” Partiyası və Ədalət Partiyası, nasistlərin tərəfdarı olan partiyalar, antikommunist partiyalar yaradıldı. Eləcə də Monarxist parlament fraksiyasının əsasında “Milli Birlik Partiyası” yaradıldı və hətta onlar 1944-cü ilin avqustunda özünü “Xalq Partiyası” adlandırmağa başladılar.

1945-ci ilin sentyabr ayında, S.C.Pişəvəri tərəfindən yaradılmış Azərbaycan Demokrat Firqəsi (Partiyası) yaradıldı. Yaranmasından üç ay sonra İranın şimal əyalətlərini (cənubi Azərbaycan) birləşdirərək Azərbaycan Milli Hökumətini elan etdi və bir il müddətində milli dövlətçilik quruculuğunda xeyli işlər gördü. 1946-cı ilin dekabr ayında Pəhləvi qoşunlarının İngiltərə dəstəyi ilə hücumu zamanı minlərlə tərəfdarını itirmiş ADF mühacirət etməyə məcbur oldu. Mühacirətdə fəaliyyətini bərpa edən ADF 1979-cu il inqilabını dəstəklədi və 1982-ci il repressiyalarında xeyli partuya mənsubu edam edildi. Partiya yenidən öz təşkilatlarını mühacirətdə bərpa etməli oldu və hal-hazırda da fəaliyyətini davam etdirir.

İran coğrafiyasında milli ideyanın ciddi fəsadlar törədə biləcəyini nəzərə alaraq 1947-ci ildə şah sarayı tərəfindən maliyyələşdirilən daha bir şah tərəfdarı olan “Ariyan” Partiyası yaradıldı. İran rejimi Azərbaycanda və Gilanda milli hərəkatları və milli düşüncənin yüksələn təsirlərindən xəbərdar idi. Odur ki, ölkədə ümummilli ideyanı təbliğ edən “irançılıq-ariyaçılıq” hərəkatı dəstəklənməyə başlandı.

Ariyan Partiyasının üzvləri və onların silahlı dəstələri baş nazir Müsaddiqin devrilməsində fəal iştirak etdilər. 1949-cu ildə Məhəmməd Müsaddiq və millətçi, liberal və sosial-demokrat siyasi yönümlü bir sıra dünyəvi ziyalılar “İran” Partiyası əsasında “İran Milli Cəbhəsini” yaratdılar. “Cəbhə” bir neçə il hakimiyyətdə olsa da, 1953-cü il çevrilişindən sonra hakimiyyəti itirdi və gizli fəaliyyətə başladı. 1979-ci il İnqilabı zamanı “Milli Cəbhə” ölkədə açıq fəaliyyətə başladı və İslam Respublikasının qurulmasını dəstəklədi. 1981-ci ilin iyulunda partiya olaraq qadağan edildi və İranda rəsmi olaraq qeyri-qanuni təşkilat olsa da, hələ də fəaliyyətini davam etdirir.

1953-cü il çevrilişindən sonra İranda hərbi vəziyyət tətbiq olundu və bütün partiyaların qanuni fəaliyyəti qadağan edildi. Liberallaşma yalnız 1957-ci ildə hərbi vəziyyətin ləğvi və dövlət yönümlü partiya quruculuğu ilə yenidən başladı. 1957-ci ildə Şah Məhəmməd Rza Pəhləvi ABŞ-dan nümunə götürərək İranda ikipartiyalı sistem yaratmağa qərar verdi. İranın 37-ci baş naziri Mənuçöhr Eqbal monarxist, milli-mühafizəkar (Melliyun), daxili işlər naziri Əmir Əsədullah Ələm isə liberal müxalifət təşkilatını - Xalq Partiyasını (Mərdom) yaratdı. 1963-cü ildə Melliyun Partiyasının bazasında “idarə olunan” ikipartiyalı sistemin yeni hakim partiyası “İrane Novin” (Yeni İran) yaradıldı. Partiyaya İranın baş nazirləri Həsən Əli Mənsur və Əmir Abbas Hoveyda rəhbərlik etdilər (Ə.Hoveyda İran islam respublikası tərəfindən edam edildi). 1975-ci ildə “Mərdom” Partiyası ilə İran Millətinin “Dirçəliş” Partiyası (Rəstəxiz) birləşərək İranda təkpartiyalı sistemin əsası qoyuldu.

İranda demokratik siyasi partiyaların yaranması və nisbətən azad fəaliyyəti 1979-cu il inqilabından sonra başlandı və bu proses 1982-ci ilə qədər müxtəlif məhdudiyyətlərlə davam etdi. 1982-ci il repressiyalarından sonra İran İslam Respublikası dini ideolojı dövlət modeli irəli sürərərk hər hansı dünyəvi ideologiyanın fəaliyyətinə icazə vermədi və bu kimi partiya və təşkilatları ağır təqibə məruz qoydu.

Bir sıra tədqiqatçılar İranda siyasi partiyaların yaranması tarixini üç mərhələyə bölürlər. 1905-1953-cü illər, 1953-1979-cu illər və 1979-cu ildən sonrakı mərhələ. Bu dövrləşmə son dərəcə subyektivdir və İranda baş verən siyasi, mədəni, iqtisadi proseslərin mahiyyətini ifadə etmir.

İranda milli hərəkatı təşkil edə biləcək etnik qrupları İrandilli etnik qruplar, türkdilli etnik qruplar və ərəbdilli etnik qruplara bölmək cəhdləri də yanlış yanaşmadır. İrandilli xalqları əhalinin 67 faiz, türkdilli xalqları əhalinin 30 faizi, ərəbdilli xalqları əhalinin 2.4 faizi kimi göstərməklə ölkədə dominant qüvvələri müəyyənləşdirmək və nəticələr çıxarmaq yanlışdır. İranda son yüz ildə etnik kimliyindən uzaqlaşmış, mərkəzçı düşüncə və irançı identifikliyə mənsub çox böyük insan kütləsi mövcuddur ki, onların siyasi təşkilatlarda xüsisi çəkisi mühüm rol oynayır.

1982-ci ildən başlayaraq ölkədə yalnız islam dini doktrinasına əsaslanan partiya, təşkilat və qruplar fəaliyyət hüququ qazandılar. Belə ki, dini doktrina da təftiş edilərək yalnız "vilayəti fəqih" modelini qəbul edən qruplar fəaliyyət göstərə bilərdilər. Fərqli dini təmayülli təşkilatlar ciddi repressiyaya məruz qaldılar və ölkədən mühücirət etməyə məcbur oldular.

Mühacirət etmiş siyasi təşkilatlar içərisində Azərbaycan Demokrat Firqəsi digərlərinə nisbətən daha mütəşəkkil oldu və təşkilatı quruluşunu, ideolojı platformasını, üzvlərinin yerləşdirilməsi, ölkə daxilində olan qurumlarla əlaqələrini qoruyub saxlaya bildi. Mühacirət illərində bir çox İran siyasi partiyaları fəaliyyət proqramlarına yenidən baxmalı oldular, mübarizə taktikasını və strategiyasını dəyişdirmək məcburiyyətində qaldılar, bir sıra təşkilatlar parçalandı və fəaliyyətlərini dayandırdı.

İranın siyasi partiya və təşkilatlarının mühacirət etməsi ilə yanaşı ölkə əhalisinin təhsilli və ziyalı təbəqəsindən də xeyli insan mühacirət etdi. 1982-1988-ci illər arasında İrandan Avropa ölkələrinə yüz minlərlə insan köç etdi və bu proses bu gün də davam etməkdədir. İran dövləti mühacirət axınından istifadə edərək mühacirət qruplarının daxilində təxribatlar etmək siyasətini də genişləndirdi.

Mühacirətdə siyasi təşkilat saxlamaq, onun maliyə qaynaqlarını təmin etmək, təşkilatın təhlükəsizliyini təmin etmək və ölkə daxilində ideolojı fəaliyyətini davam etmək imkanları ciddi maliyə dəstəyi tələb edirdi və bir çox qruplar müxtəlif dövlətlərin təsiri altına düşdülər. Radikal siyasi qruplardan olan "Mücahidlər" də məhz belə oldilar.

Müasir İranın partiya sistemi dünyada qəbul olunmuş analoji sistemlərdən əlbətdə ki, fərqlənir.  Lakin, "İranın Qərb mənasında siyasi partiyaları yoxdur" düşüncəsi də yanlışdır. Bu analitiklər "İran partiyaları konkret siyasətçinin tərəfdarlarından ibarət qruplardır ki, onlar yalnız seçki kampaniyaları zamanı fəallıq göstərirlər, seçkilər bitdikdən sonra  yox olurlar" kimi təhlillər İranın spesifikasını düzgün qiymətləndirməməkdi. Onların qərargahı, rayon və şəhərlərdə daimi şöbələri  geniş məscid infrastrukturundan ibarətdir. İran İslam Respublikasının partiyaları  siyasi hakimiyyəti ələ keçirmək məqsədi yoxdur, çünki Ekspertlər Şurası (şuraye xibrəqan) tərəfindən seçilən və yalnız ona cavabdeh olan Ali Rəhbər İranda real gücə malikdir. Bu baxımdan siyasi qrup və təşkilatlar yalnız İranın siyasi dövlət modeli çərçivəsində mövcud ola bilir və fəaliyyət göstərirlər.

Ölkənin ümumi siyasətini müəyyən edən və dövlətin ümumi siyasi xəttinin həyata keçirilməsinə nəzarət edən, Silahlı Qüvvələrə ümumi komandanlığı həyata keçirən, hakimiyyətin üç qolu arasında mübahisələri həll edən və dövlətin əsas vəzifələrinə nümayyəndələrini təyin edən Ali Rəhbərdir. Bu idarəetmə modelini mükəmməl hesab etmək olardı, əyər R.Xomeyninin vəfatəndan sonra "vilayəti fəqih" qərarlarının manipulyasiyası olunmasaydı. Təcrübə göstərir ki, Ə.Xamineyinin də ölümündən sonra "canişinin" təyin edilməsində ciddi konfliktlər qarşıya çıxacaq. İranda "fəqih" hakimiyyəti əvəzinə dini klan hakimiyyəti formalaşdı.

İran İslam Respublikası parlamentində təmsil olunan qrupları siyasi təşkilat və ya fraksiyalar kimi təqdim edənlər də bilir ki, bu nümayəndələrin tərkibi rəhbər tərəfindən müəyyənləşdirilir və mərkəzi ideologiyadan kənar heç bir mövqeyə malik olmayan nümayəndələr yalnız büdcə bölgüsündə və lobbiçilik fəaliyyətində özlərini ifadə edə bilirlər.

1980-ci illərdə İranda yeganə qanuni partiya inqilabdan iki həftə sonra, 19 fevral 1979-cu ildə Ayətullah Xomeyninin qərarı ilə ölkədə İslam respublikasının qurulmasına yardım etmək məqsədi ilə yaradılmış "İran İslam Partiyası" (İİP) idi. 1980-ci illərin ortalarında partiya üzvlərinin sayı 5 milyon nəfərə çatmışdı. Tədricən İİP daxilində müxtəlif qruplaşmalar arasında mübarizə kəskinləşirdi. Müzakirələr əsasən İran-İraq müharibəsi, ölkənin xarici kapitala açılması məsələsi, İslam inqilabı ideyalarının yayılması, iqtisadi siyasətin bəzi aspektləri (ilk növbədə iqtisadiyyatın dövlət tənzimlənməsi) və dinin siyasi həyata təsir dərəcəsi ilə bağlı barışmaz mövqelər ortaya qoyulurdu. Qeyd olunurdu ki, İİP ilə rəqabət apara biləcək digər siyasi qüvvələrin olmaması partiyanın parçalanmasına təsir göstərir və 2 iyun 1987-ci ildə Rəfsəncani və Xameneyi tərəfindən edilən təklif Xomeyni tərəfindən bəyənildikdən sonra partiya öz fəaliyyətini dayandırdı.

Rəsmi olaraq İİP "yaradıldığı tarixi məqsədlərinə çatdıgına görə" buraxılsa da, əslində daxili ixtilaflara görə dağıldığını hamı etiraf edirdi. Mümkün səbəblər arasından ən təhlükəli səbəb daxili münaqişə ilə yanaşı, partiyanın "Musəvini dəstəkləyən radikal fəalların qalasına" çevrilməsi idi.

Göründüyü kimi İranın siyasi palitrasında islamın alternativi yenə də islamdır. 45 il keçməsinə baxmayaraq monolit islam anlayışı formalaşmadı və dini klanlar daxilində bir sıra hallarda antoqonist ziddiyyətlər davam edir. İslam dini qrupları heç vaxt olmadıgı qədər klanlaşıb və əsasən üç böyük qrupda cəmləşib. Əsas güc mərkəzi olan Tehran (mərkəz) qrupu, İslam elmi mərkəzi olaraq Qum ilahiyyatçıları və əsas iqtisadi rıçaqları əllərində saxlayan Məşhəd ilahiyyatçıları qrupu.

Post-islam respublikası mərhələsində İranda "rəngarəng" partiya və siyasi təşkiltların yaradılması proqnoz edilə bilər. Lakin ideoloji istiqamətlərinə görə əsas güc mərkəsi olaraq üç istiqamət diqqəti cəlb edəcək. Birinci qrup siyasi təşkilatlar milli təşkilatlar olaraq əsas kütləni ətrafında toplayacaq, ikinci qüvvə olaraq milli və regional dini xadimləri inisiativi ələ almağa çalışacaq, üçüncü qrup İranın bütövlüyünü müdafiə edən kosmopolit elita təşkil edəcək.

İran sərvətli ölkədir. Lakin İran xalqları bu sərvətdən heç bir zaman faydalanmayıb, sosial və mədəni həyatlarını yaxşılaşdırmaq, müxtəlif planlar qurmaqdan həmişə uzaq olublar.

Ölkənin böyük maliyyə rezervini, təxminən 60-80 milyard ABŞ dolları həcmində məblagi İran pəhləvi ailəsi özü ilə apardı. XX əsrin 70-ci illərində bu mədləğ kifayət qədər böyük maliyə resursu idi ki, ətraf ölkələrin belə maliyyə rezervləri yox idi.

İran İslam Respublikası da ölkənin milli gəlirlərini siyasi və ideoloji istiqamətə yönəldərək bir tərəfdən onu qeyri-reasional sahələrə sərf etdi, digər tərəfdən yarıtmaz menecmentin nəticəsində korrupsiya və büdcə mənimsənilməsi halları İranda adi hal almağa başladı.

Pəhləvilər zamanı ölkədə sosial sıgorta, tibbi sığorta və asanlaşdırılmış tibbi xidmətlər, icbari və kütləvi təhsil sistemi yox idi. Uşaqlar erkən yaşlarından agır fiziki əməyə cəlb olunurdu və ölkədə savadsızlıq, cəhalət və dini fanatizm üst həddə idi. 1960-1970-ci illərdə Tehranın şimalında aristokratların cah-cəlallı məhəllələri ölkəyə gələn qonaqlar və jurnalistlər üçün modernist İran təsəvvürü yaratsa da ölkə feodal münasibətləri ilə idarə olunurdu.

İran iqtisadiyyatının son  50-70 ildə əsas hissəsini karbohidrogen ehtiyatlarının satışı təşkil edib. Ənənəvi aqrar ölkə olaraq İran 20-30 ildə kənd təsərrüfatı məhsullarının satışı ilə də məşğul olur və iqtisadi sanksiyalar, bank xidmətlərinin olmaması bu sahəni də iqtisadi səmərəli olmasının qarşısını alır.

Ölkənin nəqliyyat infrastrukturu da ideolojı səbəblərdən şəkillənməyib. Ölkə daxili daşımaların 80-90 faizi avtomobil nəqliyyatı vasitəsi ilə həyata keçirilir. Sanksiyalar səbəbindən ölkənin təyyarə parkı mövcud deyil və dəmir yolu daşımaları ölkənin məhdud ərazisini əhatə edir.

Müasir İranda gənclər müxtəlif məhdudiyyətlərə baxmayaraq "internet əsrinə" sürətli inteqrasiya olunur və qlobal informasiya proseslərinin aktiv iştirakçılarıdırlar. Onları informasiya məhdudiyyətində saxlayaraq dini və feodal münasibətlər sisteminin əsiri olaraq saxlamaq ildən-ilə çətinləşir. Terrorist kimi öldürülən Qasım Süleymaninin "Cənnətdə həzrəti Fatimənin şəxsi köməkçisi vəzifəsinə təyin olunması" haqqında İran din xadimlərinin bəyanı artıq gənclərdə ironiya yaradır və XX əsrin 70-ci illərində müşahidə olunan kütləvi asketizmdən əsər-əlamət qalmayıb.

Odur ki, ölkə iqtisadiyyatını müasir tələblər səviyyəsinə uyğunlaşdırılması, ölkənin gənc nəslinin ümidli və  gələcəyi olan ölkədə yaşamaq perspektivi post islam respublikası dövlət quruculuğunda əhəmiyyətli rol oynayacaq. İranın dövlət quruculuğunda ənənəvi mühafizəkarlıqdan fərqli olaraq post islam respublikası mərhələsində gənclərin dominant olması gözlənilir.

**Pərviz Kazımi**

**Cross Media Təhlil Mərkəzinin analitiki, fəlsəfə doktoru**

